**KÖNLÜMÜN SEVİNCİ, QƏMİ BU TORPAQ**

Marağa üzündən, Təbriz gözündən
Hələ öpməmişəm, öpəsiyəm mən.
Ayağım dəyməyən o torpaqları
Həsrətli gözümə təpəsiyəm mən.

Çəkilmir başından duman xalqımın,
Günlərdən gün payı uman xalqımın…
Qoynu qasırğalı ümman xalqımın
Küləklər sovuran ləpəsiyəm mən.

Yaylağım qovuşmaz, yaylam bitişməz,
Baharı gətirən bayram bitişməz…
İki parçalanmış laylam bitişməz –
Bölünmüş beşiyin körpəsiyəm mən.

Qaradağ, Qarabağ – qədim mahalım,
Al sınıq könlümü, qoyma yuxalım.
Yetər Savalana, yetər bu halım –
Yurdumun nisgilli Kəpəziyəm mən.

Yaramı açmayın – aranı açın,
Qəribdir qardaşım, yalqızdır bacım…
Bu tayda göyərən yaşıl ağacın
O tayda qaralan kölgəsiyəm mən.

Ömrümdən-günümdən baxan Arazdır,
Araz aramızdan axan Arazdır.
Desələr günahkar o xan Arazdır,
Arazı gözümdən səpəsiyəm mən…

Könlümün sevinci, qəmi – bu torpaq,
Sünbülə döndərər dəni bu torpaq…
"Çiyninə aşırıb" məni bu torpaq –
O taylı, bu taylı heybəsiyəm mən…



Adil CƏMİL